# Azərbaycan Respublikasının Hesablama Palatasının fəaliyyətinə rəy

Rəşad Həsənov, Tural Abbasov, Nərmin İbrahimova

İqtisadi və Sosial İnkişaf Mərkəzi

BAKI-2014

## *Tədqiqatın Məqsədi*

- Azərbaycanda ictimai vəsaitlərə ictimai nəzarət imkanlarının öyrənilməsi
- Hesablama Palatasının fəaliyyətinin tədqiqi
- İctimai vəsaitlərə kənar auditinin təşkili və həyata keçirilməsinin təkmilləşdirilməsi məqsədi ilə təkliflərin hazırlanması

# Tədqiqatı gərəkdirən səbəblər

- Azərbaycanın sürətlə artan maliyyə imkanları;
- İctimai vəsaitlərin idarə edilməsi prosesində şəffaflığın artırılması zərurəti;
- Azərbaycanın illər üzrə korrupsiya qavrama indeksi

| | 2000 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| **Ölkə sayı** | **90** | **179** | **180** | **180** | **178** | **183** | **176** | **177** |
| **Yer** | **87** | **148** | **159** | **143** | **134** | **143** | **139** | **127** |
| **Bal** | **1,5(10)** | **2,1(10)** | **1,9(10)** | **2,3(10)** | **2,4(10)** | **2,4(10)** | **27(100)** | **28(100)** |

- Hesablama Palatasının yenicə yaranmış və təkmilləşməyə ehtiyacı olan institut hesab edilməsi;
- Beynəlxalq təşkilatlar tərəfindən tərtib edilən reytinq hesablamalarında Azərbaycanın açıq büdcə indeksinin geriləməsivə s. kimi ölkəmizin beynəlxalq nüfuzuna mənfi təsir edən amillər.

# *Açıq Büdcə İndeksi*



# *Açıq Büdcə İndeksi*



# *Tədqiqatın aparılması istiqamətləri*

- İctimai vəsaitlərə kənar auditin mahiyyəti
- Kənar auditin təşkilində AAİ-lərin rolu
- Milli AAİ olaraq Hesablama Palatası
- Hesablama Palatasının statusu və müstəqilliyinin təmin edilməsində mövcud qanunvericilik
- Dövlət büdcəsinə, büdcədən kənar fondlara nəzarət imkanlarının təhlili
- Mövcud çatışmazlıqların aradan qaldırılması məqsədi ilə təkliflər

# ÜMUMİ BAXIŞ

- Müasir dövlət anlayışı daha çoxtərəfli və dərin prinsiplərə söykənir.
- Hökumətlərin həyata keçirdiyi bütün növ fəaliyyətlər və onun nəticələri xalqın rifahının yüksəldilməsinə, milli maraqların qorunmasına və məxsus olduğu təbii sərvətlərdən daha səmərəli və praqmatik istifadəyə xidmət etməlidir.
- Hökumətlərin həyata keçirdiyi fəaliyyətlərin effektivliyini, səmərəliliyini və optimallığını artırmaq, müasir və beynəlxalq təcrübədən istifadə edərək çevik və ünvanlı maliyyə siyasətini təmin etmək məqsədi ilə müxtəlif adları daşıyan lakin təxminən oxşar funksiyaları yerinə yetirən nəzarət –təftiş qurumları yaradılır ki, müasir dövrdə onlara Ali Audit İnstitutları (AAİ) da deyilir.

# *Hesablama Paltasının qavranılması*

Sorğunun nəticələri

- İştirakçıların yalnız 23%-i Hesablama palatasının mövcudluğundan xəbərdardır;
- İştirakşıların 11.6%-i Hesablama Palatasının hansı məqsədə xidmət etdiyi haqqında məlumatlıdır;
- Hesablama Palatası haqqında məlumatı olan vətəndaşların 94%-i ali təhsilli, xüsusən iqtisadi sferada fəal olan vətəndaşlardır;

# *Hesablama Paltasının qavranılması*

## Sorğunun nəticələri

- Hesablama Palatasının fəaliyyətindən xəbərdar olanların 86%-i palatanın fəaliyyətinin geniş işıqlandırılmalı olduğu fikri ilə razılaşır;
- Hesablama Palatasının fəaliyyətindən xəbərdar olanların 76%-i Hesablama Palatasının müstəqil qurum olduğuna və sərbəst qərarlar qəbul etmə imkanlarına şübhə ilə yanaşır.

# *Hesablama Palatasının fəaliyyətinə ümumi baxış*

- Hesablama Palatasının dövlət maliyyəsinə tam və əhatəli nəzarəti həyata keçirə biləcək infrastruktura və kadr potensialı çətinliyi var.




- Hesablama Palatası ARDNF-nun büdcəsinə rəy vermir
- Hesablam Palatası dövlət büdcəsinə rəylər hazırlayarkən hansı metodologiyadan istifadə etdiyini açıqlamır
- Hesablama Palatası hesabatları hazırlayarkən nisbətən çətin və akademik dildən istifadə edilir

# *Hesablama Palatasının fəaliyyətinə baxış*

- Hesablama Palatasının rəyləri əksər hallarda sadəcə rəqəmlərin dəyişikliyində özünü büruzə verir. Daha asan qavranılma və əhatəliliyin təmin edilməsi məqsədi ilə yeniliklər tətbiq edilmir
- Hesablama Paltasının ictimai hesabatlılığı hələ də yüksək deyil
- Adətən audit tədbirlərinin həyata keçirilməsi haqqında kollegiya qərarları mətbuata açıqlanır
- Hesablama Palatasının illik hesabatları qurumun rəsmi internet səhifəsində yerləşdirilmir və ictimai əlcatanlığı azdır
- Hesablama Palatasının fəaliyyəti yalnız daxili qiymətləndirməyə cəlb edilir. Kənar qiymətləndirmə aparılmır
- Hesablama Palatası illik hesabatlarında ilin daha çox əməkdaşlığa meyilli və şəffaf qurumunu açıqlamır
- Hesablama Palatası dövlət qurumlarının performansını qiymətləndirmir

## *Hesablama Palatasının dövlət büdcəsinə rəyləri*

- Palata tərəfindən dövlət büdcəsinin layihəsinə və icrasına verilən rəylər daha cox büdcə bələdçisi təəssüratı yaradır
- Həmçinin HP-nin rəyləri büdcənin təhlili və tənqidinə deyil, daha çox təklif edilən layihənin təbliğinə bənzəyir
- Rəylər hazırlanarkən HP-tərəfindən əvvəlki illərdə təkmilləşdirmə ilə bağlı təkliflərə hansı dərəcədə diqqət edildiyi qeyd edilmir.
- Dövlət büdcəsinin gəlirlər hissəsinə daha cox ümumi yanaşma ortaya qoyulur, xüsusi ilə də büdcə layihələrinin gəlirlər hissəsində nəzərdə tutulmuş proqnoz daxilolmaların əsaslandırılması aparılmır.

# *Hesablama Palatasının dövlət büdcəsinə rəyləri*

- İqtisadi sektorlar üzrə daxil olan gəlirlər ayrı-ayrılıqda bölümlər şəklində işıqlandırılmır.
- Neft sektorundan daxil olan gəlirlər, vergi və qeyri-vergi gəlirləri daha qarışıq şəkildə və müsbət yaxud mənfi dinamikanın səbəbləri göstərilmədən təqdim olunur.
- Büdcənin gəlirlər hissəsində təhlükəli tendensiyalar qeyd edilmir(NF-dan transfertlərin artımı, neft gəlirlərindən asılılıq, real sektorun büdcədəki payının cari xərclərin ödənilməsinə yetməməsi və s)
- Büdcə layihələri hazırlanarkər HP-sı alternativ layihələrlə çıxış etmir. Yəni HP-nin təkliflərinin də öz əksini tapdığı yeni sənəd hazırlanmır.
- Dövlət büdcəsinin gəlir və xərclər hissəsində ötən illərin təcrübəsinə dayanaraq ***«zəif bəndlər»*** müəyyən edilmir

## *Hesablama Palatasının dövlət büdcəsinə rəyləri*

- Dövlət büdcəsinin son illər daha çox investisiya tutumlu olduğu halda sosialyönümlü olaraq dəyərləndirilir
- Bir çox hallarda smeta dəyəri əvvəlcədən məlum olmayan layihələrin dövlət büdcəsi tərəfindən maliyyələşdirilməsinə münasibət bildirilmir
- Dövlət tərəfindən həyata keçirilən investisiya layihələrinin dəyərinin sonrada artırılması halları HP-nın rəylərində təhlil edilmir
- Büdcə vəsaitinin daha səmərəli xərclənməsini təmin etmək məqsədi ilə dövlət qurumlarının kordinasiyalı fəaliyyətinin təmin edilmədiyi rəylərdə öz əksini tapmır.
- Büdcəyə rəylər hazırlanarkən səmərəlilik qiymətləndirilməsi aparılmır

# *Hesablama Palatasının dövlət büdcəsinə rəyləri*

- Məqsəd Hesablama Palatasının fəaliyyətindəki nöqsanları ortaya çıxarmaq olsada, ötən illər ərzində qurumun fəaliyyətinin ictimai vəsaitlərə kənar nəzarətin təmin edilməsi sahəsində əldə edilmiş ən mühüm uğurlardan biri olduğunu qeyd etməliyəm
- Bundan başqa Paltanın təklifləri nəticəsində əvvəlki illərlə müqayisədə dövlət büdcəsində sair, digər adlar altında ümumiləşdirilmiş gəlir və xərclər qismən azalmışdır
- Xüsusi ilə büdcə vəsaitlərinin xərclənməsində qanunauyğunluq başlıca meyara çevrilib.
- Büdcə prosesinə nəzarətin həyata keçirilməsi nəticəsində hər il böyük məbləğdə dövlət vəsaitinə qənaət edilib.
- Dövlət alışlarında öncəödəmədən formalaşan kredit borcları nəzarətə götürülmüş, nəticədə böyük məbləğdə borclar ya ödənmiş və yaxud ləğv edilmişdir
- Büdcə layihələrin hazırlanmasında ilbəil təkmilləşmənin aparılması məqsədi ilə palata tərəfindən təkliflər müvafiq qurumlara təqdim edilib

***Güclü və müstəqil Hesablama Paltası güclü iqtisadiyyat, güclü dövlət deməkdir***

***Diqqətinizə görə minnətdaram!***